AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 35 (1495), 26 oktyabr - 1 noyabr 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Milli Gimnastika Arenasının yeni məşq binasında yaradılan şəraitlə tanışlıq

Oktyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Milli Gimnastika Arenasının yeni məşq binasında yaradılan şəraitlə tanış olublar.

Gənclər və idman naziri Fərid Qayıbov Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və qızları Leyla Əliyevaya Milli Gimnastika Arenasının ərazisində yerləşən yeni məşq binasında yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Milli Gimnastika Arenasının yeni məşq binasının tikintisi ötən ilin sentyabrında başa çatdırılıb. Burada kişi və qadın idman gimnastikası, bədii gimnastika, batut gimnastikası, ümumilikdə gimnastikanın 7 növü üzrə məşqlər keçirilir. Binada məşqçi və həkim otaqları, həmçinin gimnastlar üçün istirahət otaqları, fitnes və xoreoqrafiya zalları fəaliyyət göstərir. Burada hovuz da yaradılıb. Yeni binada eyni vaxtda 100 nəfər məşq edə bilər. Binanın ikinci mərtəbəsində idmançıların yaşayışı üçün 60 çarpayılıq 19 otaq vardır. Bir sözlə, Milli Gimnastika Arenasının yeni məşq binasında təlim-məşq toplantıları təşkil etmək, gimnastikanın müxtəlif növləri üzrə təlim keçmək və beynəlxalq yarışların yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait yaradılıb. Yeri gəlmişkən, gələn ay burada batut gimnastikası üzrə Dünya Çempionatının keçirilməsi nəzərdə tutulur. Ümumilikdə isə gələn il Milli Gimnastika Arenasında bir sıra mötəbər beynəlxalq yarışların təşkili planlaşdırılır.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva gimnastların məşqlərinə baxdılar və xatirə şəkli çəkdirdilər.

Qeyd edək ki, Prezident İlham Əliyev Azərbaycanın dünyanın nüfuzlu idman ölkəsinə çevrilməsinə, respublikanın hər yerində müasir idman infrastrukturunun yaradılmasına, yeni-yeni idman obyektlərinin tikilib istifadəyə verilməsinə, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsinə, idmanın bütün növlərinin inkişaf etdirilməsinə həmişə xüsusi diqqət yetirib. Dövlətimizin başçısının və birinci xanımın iştirakı ilə 2014-cü ildə Bakıda istifadəyə verilən Milli Gimnastika Arenası idmanın bu növünün inkişafına geniş imkanlar açıb, gənc nəslin gimnastikaya olan həvəsinin artırılması işində mühüm rol oynayıb.

Xüsusi olaraq vurğulayaq ki, Azərbaycan Gimnastika Federasiyasının əldə etdiyi böyük uğurlar Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasına rəhbərliyi sayəsində mümkün olub. Belə ki, 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının prezidenti olan Mehriban Əliyevanın fəaliyyəti nəticəsində ölkədə idmanın bu növünün inkişaf mərhələsi başlayıb, gimnastika ilə məşğul olan idmançıların beynəlxalq yarışlarda qazandığı uğurlarının sayı artıb.

## Olimpizm

### Qış Olimpiya Oyunlarının məşəli Pekindədir

Pekin-2022 Qış Olimpiya Oyunlarının məşəli oktyabrın 20-də Afinadan Çinin paytaxtına gətirilib. Pekindəki "Olimpiya qülləsi"nin yerləşdiyi ərazidə məşəlin Çinə gətirilməsi ilə bağlı mərasim keçirilib. Bir müddət "Olimpiya qülləsi"ndə nümayiş olunduqdan sonra məşəlin Çinin müxtəlif bölgələrinə estafeti başlayacaq.

Qeyd edək ki, 24-cü Qış Olimpiya Oyunlarının məşəli oktyabrın 19-da Afinada keçirilmiş mərasimdə Pekin-2022-nin təşkilatçılarına təhvil verilib.

Pekin-2022 Qış Olimpiya Oyunları fevralın 4-20-də, Paralimpiya Oyunları isə martın 4-13-də keçiriləcək. Çinin paytaxtı Olimpiya Oyunlarına ev sahibliyi etmək üçün 2015-ci il iyulun 31-də Beynəlxalq Olimpiya Komitəsinin Kuala-Lumpurda keçirilən sessiyası çərçivəsində təşkil olunan səsvermədə qalib gəlib. Pekin həm Yay, həm də Qış Olimpiya oyunlarına ev sahibliyi edəcək ilk şəhər olacaq. XXIX Yay Olimpiya Oyunları 2008-ci ildə bu şəhərdə keçirilib.

### BOK FIFA ilə razılaşmır

Beynəlxalq Olimpiya Komitəsi (BOK) FIFA-nın dünya çempionatını 2 ildən bir keçirmək ideyasına qarşı çıxıb. Qurum bu qərarın gələcəkdə ciddi problemlərə yol açacağından narahatdır. Mundialın 2 illik intervalla təşkili başqa idman yarışları ilə toqquşmaya səbəb olacaq. BOK rəsmi saytı vasitəsi ilə belə bir fikri ictimaiyyətlə bölüşüb: "Bu, başqa idman növlərinin müxtəlifliyini və inkişafını baltalayacaq. Kişilər arasında yarışların artması qadın futbolunun təbliğinə çətinliklər yaradacaq. Təqvimdəki intensivlik oyunçuların fiziki və zehni sağlamlığına daha çox təzyiq göstərəcək".

FIFA-nın yeni ideyanı bu ilin dekabrında quruma üzv olan milli assosiasiyalar arasında səsverməyə çıxaracağı gözlənilir.



Dünya çempionatının 2 ildən bir təşkilini Səudiyyə Ərəbistanı Futbol Federasiyası yayda təklif edib. Onu 166 milli assosiasiya dəstəkləyib, 22-si isə əleyhinə olub. 1930-cu ildən keçirilməyə başlayan mundial İkinci Dünya müharibəsi ilə əlaqədar, 1942-ci və 1946-cı illərdə istisna olmaqla, hər 4 ildən bir təşkil olunur. Qarşıdakı dünya çempionatı 2022-ci ildə Qətərdə keçiriləcək.

### Çimərlik futbolu Los-Anceles-2028-in proqramında yer ala bilər

Çimərlik futbolunun 2028-ci il Los-Anceles Yay Olimpiya Oyunlarının proqramına daxil edilməsi istiqamətində işlər davam etdirilir. Bu barədə Dünya Çimərlik Futbolu Təşkilatı rəhbəri Xoan Kusko jurnalistlərə açıqlamasında deyib. O, qeyd edib ki, çimərlik futbolunun Olimpiya proqramına daxil edilməsində əsas maneə Oyunlarda iştirakçı sayının məhdudlaşdırılmasıdır. Belə ki, kişi və qadınlar arasında müvafiq turnirlərin keçirilməsi hazırkı kvotanın əhəmiyyətli dərəcədə artırılmasını tələb edəcək.

## Anons

*Hacı Əliyev:*
*"Qazandığım gümüş medal mənim üçün çox dəyərlidir"* Səh. 3

"Əsas məqsədimiz sağlam həyat tərzini təbliğ etməkdir" Səh. 4

*Azərbaycan Premyer Liqası: "Neftçi"dən əzmkar qələbə* Səh. 7

"Qarabağ" qələbə sayəsində qrupda vahid liderliyini qorudu Səh. 7

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*



# Milli Paralimpiya Komitəsində görüş olub

Azərbaycan Milli Karate Federasiyasının (AMİK) prezidenti Yaşar Bəşirovun rəhbərliyi ilə milli komandanın üzvləri və federasiyanın bir qrup rəsmisi Azərbaycan Milli Paralimpiya Komitəsində görüş keçirib.

AMİK-in mətbuat xidmətindən "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, Azərbaycan karateçilərini Tokio Yay Olimpiya Oyunlarında yüksək nəticələri münasibətilə təbrik edən Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov kollektivə qarşıdakı fəaliyyətində uğurlar arzulayıb. O, parakarateçilərin də dünya və Avropa çempionatında əldə etdikləri nəticələrinin təkrarlanması və daha yüksək əyarlı medallar qazanılmasına nail olunması üçün birgə səylərini əsirgəməyəcəyini bildirib.

Görüşün təşkili və qazanılan uğurlarla bağlı xoş sözlərə görə minnətdarlığını ifadə edən Yaşar Bəşirov, federasiyada parakarateçilərə xüsusi diqqətlə yanaşıldığını və bunun sayəsində qısa zaman ərzində dünya və Avropa çempionatlarında medallara sahib olduqlarını söyləyib. Y.Bəşirov öz növbəsində Tokio Yay Paralimpiya Oyunlarında yüksək tarixi nəticə münasibətilə İlqar Rəhimovu və onun rəhbərlik etdiyi kollektivi, həmçinin idmançıları və onların məşqçilərini təbrik edib.

Noyabrda keçiriləcək dünya çempionatı ərəfəsində parakarateçilərlə görüşün onlara əlavə ruh yüksəkliyi verdiyini deyən baş məşqçi Rənad Əliyev idmançıların onlara göstərilən etimadı doğrultmağa çalışacaqlarını qeyd edib.

Beynəlxalq dərəcəli hakim Cahangir Babayev, eşitmə qüsurlu karateçilərin məşqçisi Seymur Xudaverdiyev və federasiyanın media və ictimaiyyətlə işlər katibi Sənan Məhərrəmov parakarate yarışları




barədə, həmçinin bu sahənin perspektivlərindən danışıblar.

Görüşdə həmçinin dövlət başçısı və Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin digər sahələrlə yanaşı, idmana xüsusi diqqətindən və dövlət qayğısından, eləcə də bunun sayəsində Azərbaycanın bir sıra idman növlərində beynəlxalq nüfuzunun artmaqda davam etməsindən danışılıb. İlqar Rəhimov və Yaşar Bəşirov parakarateçilərin qayğıları və onların mümkün həlli yolları haqqında da fikir mübadiləsi aparıblar. Baş katib Kamal Məmmədov və komitənin digər rəsmiləri ilə birgə müzakirədən sonra, tərəflər əməkdaşlığı daha da genişləndirmək qərarına gəliblər.

# *Paytaxtımız gələn ay keçiriləcək dünya çempionatına hazırlaşır*

İlin sonuna doğru Azərbaycan Gimnastika Federasiyası daha bir irimiqyaslı beynəlxalq yarışa ev sahibliyi etməyə hazırlaşır. Ölkəmizdə ilk dəfə - noyabrın 18-21-də batut gimnastikası üzrə dünya çempionatı təşkil olunacaq. Ölkəmizdə bu növ üzrə daha əvvəl Avropa çempionatı və çoxsaylı dünya kubokları keçirilsə də, paytaxtımız havada pərvazlanan dünya ulduzlarını ilk dəfə belə bir irimiqyaslı yarışda Milli Gimnastika Arenasına toplayacaq.

İlkin qeydiyyat siyahısına əsasən, yarışda 33 ölkədən 300-dək gimnast iştirak edəcək. Dörd gün davam edəcək çempionatda gimnastlar batut üzərində fərdi və sinxron tullanışlar, tamblinq və ikili minibatut üzrə proqramlarda çıxış edəcəklər. Bundan əlavə, komanda hesabında qaliblər müəyyənləşəcək.

Yarışların ilkin cədvəlinə əsasən, ilk iki gün təsnifat, sonuncu iki gün isə finallar keçiriləcək. Qaydalara əsasən, bir iştirakçı bir neçə proqramda çıxış edə bilər.

Çempionatda hər bir proqram üzrə təsnifat və final mərhələləri baş tutacaq.



# *Konqresdə 172 milli federasiya iştirak edib*

Ümumdünya Triatlon Federasiyasının sayca 34-cü konqresi keçirilib. Quruma üzv olan 172 milli federasiyanın nümayəndələrinin onlayn qaydada iştirak etdikləri tədbirdə ölkəmiz Azərbaycan Triatlon Federasiyasının prezidenti Azər Məhərrəmov və baş katib Cavad Axundzadə ilə təmsil olunub.

Ümumdünya Triatlon Federasiyasının prezidenti xanım Marisol Kasado çıxışında bildirib ki, Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarında ilk dəfə estafet üzrə yarışlar keçirilib. 2024-cü ildə Fransada gerçəkləşəcək Olimpiya Oyunlarında da yenilik olacaq. Belə ki, idmançılar ilk dəfə super sprint kateqoriyasında medal qazanmağa çalışacaqlar.

Konqresdə yeni mövsümün beynəlxalq təqvimi də müzakirə edilib. 2022-ci ildə Əbu-Dabidə keçiriləcək dünya çempionatının təqdimat mərasimi olub. Monreal şəhəri isə sprint və estafet üzrə dünya çempionatına ev sahibliyi edəcək.

# Usta cüdoçularımız dünya çempionatında 8 dəfə fərqləniblər




Portuqaliyanın paytaxtı Lissabonda veteran cüdoçular arasında dünya çempionatı keçirilib. 43 ölkədən 369 (353 kişi, 16 qadın) usta cüdoçunun iştirak etdiyi yarışda azərbaycanlı idmançılar da qüvvələrini sınayıblar. Komandamız Lissabonda 15 cüdoçu ilə təmsil olunub. Usta cüdoçularımız yarışı 8 medalla başa vurublar.

Çempionatın əvvəlki günlərində komandamızın üzvlərindən Babək Hacıyev (M-4, 60 kq) qızıl, Mübariz Cəfərov (M-5, 81 kq) gümüş, Müşfiq Cəfərov (M-5, 73 kq), Tural Səfquliyev (M-1, 100 kq) və Azər Əsgərov (M-5, +100 kq) bürünc medal qazanıblar.

Mötəbər yarışın sonuncu günündə cüdoçularımız daha 3 medala sahib çıxıblar. Təmsilçilərimizdən Məmməd Məmmədov (M-2, 73 kq) gümüş, Vüqar Babayev (M-2, 66 kq) və İntiqam Ələkbərov (M-2, 100 kq) isə bürünc medala yiyələniblər.

# Boksçularımız Avropa çempionatını 2 medalla başa vurdular

Monteneqronun Budva şəhərində gənc boksçular arasında Avropa çempionatı keçirilib. Yığmamız çempionatda baş məşqçi Əsgər Eyvazov, məşqçilər Əli İsmayılovla Şahin İmranovun rəhbərliyi altında 9 boksçu ilə təmsil olunub. Yarışda Tural Sarıyev (48 kq), Nicat Hüseynov (51 kq), Kamil Babayev (54 kq), Tacı Təğızadə (57 kq), Zaur Qəhrəmanov (60 kq), Qulu Quliyev (63,5 kq), Nicat Qurbanov (71 kq), Fətəli İsmayılov (86 kq) və Rəşid Məmmədov (92 kq) qüvvəsini sınayıb. Komandamız yarışı iki bürünc medalla başa vurub. Komandamıza bürünc medalları boksçularımızdan Nicat Hüseynov (51 kq) və Kamil Babayev (54 kq) qazandırıb.



# Güləşçilərimiz Belqradda yarışacaqlar

Noyabrın 1-dən 7-dək Serbiyanın paytaxtı Belqradda 23 yaşadək güləşçilərin dünya çempionatı keçiriləcək. Mundialda ölkəmizi hər 3 güləş növü üzrə millilərimiz təmsil edəcək. Artıq yığmalarımız məsul yarışın hazırlıqlarına start verib.

Sərbəst güləşçilər dünya çempionatına daha yaxşı hazırlaşmaq üçün Dağıstana yollanıblar. Komandamız baş məşqçi Namiq Abdullayev, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında Xasavyurtda yerli güləşçilərlə birgə təlim-məşq toplanışı keçir. Millimiz yarışın startınadək Dağıstanda hazırlıq prosesini davam etdirəcək.



Yunan-Roma və qadın güləşi üzrə yığmalarımız məşqləri Bakıda keçirlər. Hazırlıq prosesi Olimpiya Güləş Mərkəzində təşkil olunub.

Qeyd edək ki, yarışın ilk günlərində güləşin klassik növü üzrə mübarizə baş tutacaq. Daha sonra qadın güləşçilər xalça üzərinə çıxacaqlar. Çempionatın son günlərində isə sərbəst güləşçilər çıxış edəcəklər.

# Komandamız "Böyük dəbilqə"də 28 cüdoçu ilə mübarizə aparacaq

Noyabrın 5-7-də Bakıda keçiriləcək cüdo üzrə "Böyük dəbilqə" turniri üçün Azərbaycan komandası heyətini açıqlayıb.

Turnirdə Azərbaycan 28 (20 kişi, 8 qadın) cüdoçu ilə təmsil olunacaq. Kişilərin yarışında Balabəy Ağayev, Rövşən Əliyev, Əhməd Yusifov, Turan Bayramov (60 kq), İbrahim Əliyev, Orxan Səfərov, İsmayıl İbrahimov (66 kq), Hidayət Heydərov, Rüstəm Orucov, Telman Vəliyev (73 kq), Elcan Hacıyev, Ömər Rəcəbli, Kərim Məmmədov (81 kq), Rüfət İsmayılov, Vüqar Talıbov, Məmmədəli Mehdiyev (90 kq), Adil Kərimli, Ruslan Nəsirli (100 kq), Uşangi Kokauri, Camal Feyziyev (+100 kq) mübarizə aparacaqlar.



Qadınların turnirində isə Aişə Qurbanlı, Şəfəq Həmidova (48 kq), Zeynəb Məmmədova, Ülviyyə Bayramova (52 kq), İchinkhorloo Munkhtsedev (57 kq), Aytac Qardaşxanlı (63 kq), Günel Həsənli, Südabə Ağayeva (70 kq) güclərini sınayacaqlar.

Qeyd edək ki, Bakıda keçiriləcək "Böyük dəbilqə" turnirində indiyədək 28 ölkədən 186 cüdoçu iştirakını təsdiqləyib.

Olimpiya mükafatçılarımız

# Hacı Əliyev: “Qazandığım gümüş medal mənim üçün çox dəyərlidir”

***Yaponiyanın paytaxtı Tokioda keçirilən XXXII Yay Olimpiya Oyunları artıq tarixdə qaldı. Düz 5 il bütün dünyanın gözlədiyi möhtəşəm idman bayramında ölkəmizi 13 idman növü üzrə 44 idmançı təmsil etdi. Tokio-2020-dən təmsilçilərimiz 3 gümüş, 4 bürünc medalla Vətənə qayıtdılar. Olimpiya Oyunlarının gümüş medalçıları sırasında 65 kq çəki dərəcəsində Oyunlara qatılan sərbəst güləş üzrə Azərbaycan millisinin üzvü Hacı Əliyev də yer alıb. “Olimpiya dünyası” qəzeti bu dəfə oxucularına ikiqat Olimpiya mükafatçısı, üçqat dünya və Avropa çempionu ilə hazırladığı müsahibəni təqdim edir.***





***- Hacı, ardıcıl ikinci dəfə Olimpiya Oyunlarında mükafatçılar sırasında yer aldın. Yuxusuz gecələr, gərgin məşqlər sayəsində əldə etdiyin qələbə anlarını necə xatırlayırsan?***

- Tokio-2020-nin bir il təxirə salınması onu bütün idmançılar üçün daha da arzulanan etdi. Buna görə də, səbrsizliklə gözlədiyim həmin anlar mənim yaddaşımdan heç vaxt silinməyəcək. Oyunlara qızıl medal üçün yollansam da, final qarşılaşmasında rəqibə xal verdiyim üçün istədiyim nəticəni əldə edə bilmədim. Əslində, bunun səbəbini bir anlıq səhvin nəticəsi, uğursuzluq və ya qismətimin belə olmasında da görmək olar. Lakin buna baxmayaraq, qazandığım gümüş medal mənim üçün çox dəyərlidir. Tokio-2020-də mükafatçılar sırasında yer almaq hər bir idmançının arzusu idi. Şükürlər olsun ki, bütün çətinliklərə tab gətirib, Olimpiya Oyunlarının gümüş medalını əldə etdim.

***- Olimpiya Oyunlarının bir il təxirə salınması çoxları üçün gözlənilməz oldu. Bu xəbəri eşidəndə hansı hissləri keçirdin?***



- Sözsüz ki, Oyunların təxirə salınması xəbəri mənim üçün də gözlənilməz oldu. Həmin vaxt biz Mahaçkalada təlim-məşq toplanışında idik. Gözlənilmədən bizə zəng olundu və Olimpiya Oyunların növbəti ilə təxirə salındığı xəbəri verildi. Etiraf edim ki, bu xəbər bizi çox məyus etmişdi. Bir il sonra hansı formada olacağımız, zədəmizin olub-olmayacağını təxmin etmək çox çətin idi. Amma həmin vaxt biz artıq 3-4 təlim-məşq toplanışı keçmişdik və Tokio-2020-yə yüksək səviyyədə hazırlaşmışdıq. Lakin artıq qərar verilmişdi və biz də bu qərara uyğunlaşmağa məcbur idik. Buna görə də, məşqlərə tam sürətlə davam edib Olimpiya Oyunlarında mükafatçılar sırasında yer almağa nail oldum.

***- Bu günə qədər çıxış etdiyin çəki dərəcəsində bir sıra titullu idmançılarla qarşılaşmısan. Bəs Tokioda ilk dəfə qarşılaşdığın idmançı oldumu?***

- Bəli, Seneqal və Qazaxıstan təmsilçiləri ilə ilk dəfə idi ki, güləşirdim. Hər kəsə məlumdur ki, Olimpiya Oyunlarında zəif rəqib olmur. Buna görə də, Qazaxıstan təmsilçisini xüsusi vurğulamaq istəyirəm. Belə ki, bu güləşçi 2019-cu ildə keçirilən dünya çempionatında gümüş medal qazanmışdı. Yəni bir sözlə, rəqiblərimin hamısı güclü idi.

***- Qələbə qazandıqdan sonra sənə ünvanlanan ən təsirli təbrik nə oldu?***

- Final qarşılaşmasından sonra ilk olaraq məşqçilərim və valideynlərim məni təbrik etdi. Onlar mənə bu medalın illərdir çəkdiyim əziyyətin bəhrəsi olduğunu dedilər. Həmin anlar gözümün qarşısına yuxusuz gecələr, çətin məşq prosesləri gəldi və deyilən sözlərin həqiqətən də, doğruluğunu dərk etdim. Onu da vurğulayım ki, final mərhələsinə vəsiqə qazananda sevincimin həddi-hüdudu yox idi. Bu mərhələyə gəlib çatdığım üçün özümlə qürur duyurdum. Düşünürdüm ki, şükürlər olsun ki, mən də Olimpiya Oyunlarının final mərhələsinə vəsiqə qazandım. Yəni bir sözlə, ağlamamaq üçün özümü güclə ələ alırdım.

***- Pandemiya şərtlərini nəzərə alaraq, Oyunlar azarkeşsiz keçirildi. Bu amil güləşməyinə necə təsir etdi?***

- Təbii ki, azarkeşlərin dəstəyi idmançı üçün çox böyük stimuldur. Çünki güləşən zaman tribunalardan Azərbaycan və ya adımızın səslənməsi bizi yarışmağa daha da ruhlandırır. Bu zaman biz tatami üzərində tək olmadığımızı, arxa cəbhədə bizə böyük azarkeş kütləsinin dəstək olduğunu hiss edirik. Buna görə də, əlbəttə ki, azarkeşlərin olmaması bizə ciddi təsir edir. Lakin buna baxmayaraq, biz Oyunlarda belə amillərin olacağını, hətta daha da ağır şəraitdə güləşmək ehtimalı olacağını nəzərə alıb bu yola çıxmışdıq.

***- Bəs XXXII Yay Olimpiya Oyunlarında yaddaşında heç vaxt silinməyəcək hadisə hansı oldu?***

- Əlbəttə ki, ilk olaraq daim xatirəmdə qalacaq hadisə uzun müddətdir mübarizə aparıb, əldə etdiyim Oyunların gümüş medalı olacaq. Bundan əlavə isə bildiyiniz kimi Olimpiya Oyunlarının bağlanış mərasimində Azərbaycan komandasının bayraqdarı olmaq mənə həvalə edilmişdi. Bu da mənim üçün həqiqətən də çox böyük şərəf idi. Belə məsuliyyətli bir vəzifənin mənə həvalə edilməsi qürurverici və sevindirici hadisə oldu.

***- İlk dəfə idi ki, pandemiya şəraitində Olimpiya Oyunlarında iştirak etdin. Oyunların təşkilatçılıq səviyyəsini necə qiymətləndirirsən?***

- Oyunların pandemiya şəraitində keçirilməsinə baxmayaraq, təşkilatçılıq yüksək səviyyədə idi. Lakin hər gün COVİD-19 testi vermək, yoxlanılmaq idmançıları çox yorurdu. Verilən testin nəticəsinin hər an pozitiv çıxma ehtimalının olması və bu səbəbdən yarışları yarıda saxlamalı olmağımız bizə böyük həyəcan yaşadırdı. Ümumilikdə isə bu amili nəzərə almasaq, Olimpiya Oyunları yüksək səviyyədə və maneəsiz keçirildi.

***- Bildiyimizə görə, uzun müddətdir ki, görmə qabiliyyətində zəiflik yaranıb. Gözündə olan problemlə bağlı nə deyərdin?***

- Düzdür, gözümdə olan problem artıq görmə qabiliyyətinin itməsi ilə nəticələnə bilərdi. Buna görə də, yanvarın 13-də əməliyyat oldundum. Təxminən iki saat əlli dəqiqə çəkən əməliyyatdan sonra həkimlər mənə bir müddət güləşməyi məsləhət görmədilər. Lakin mənim üçün əsas məqsəd Olimpiya Oyunları olduğu üçün mart ayında keçirilən lisenziya yarışlarına qatıldım. Düzdür, həmin vaxt hazırlıq səviyyəm çox aşağı idi. Bundan əlavə də gözüm tam sağalmamışdı. Həmçinin gözümə hər an zərbə dəyəcəyi və ciddi problem yaranacağından ehtiyat edirdim. Çətin bir şəraitdə olsa belə Tokio-2020-yə lisenziyanı əldə etdim. Bundan sonra isə Oyunlara rahat şəkildə hazırlaşdım. Əslində, hazırda da gözümdə müəyyən problemlər mövcuddur. Tokiodan qayıtdıqdan sonra gözümdə mirvari suyu yaranıb. Bunu aradan qaldırmaq və yerinə linza yerləşdirmək üçün kiçik bir əməliyyat keçirməliyəm. Bu əməliyyatı isə yaxın günlərdə keçirməyi planlaşdırıram. Yeri gəlmişkən qəzetiniz vasitəsi ilə həkimimə təşəkkürümü bildirirəm. Mən Olimpiya Oyunlarına yola düşənə qədər həkimim, öz komandası ilə birgə məni diqqətdə saxladı.

***- Azarkeşlər səni Paris-2024-də görə biləcək, yoxsa Olimpiya Oyunlarının gümüş medalı qızıla bərabərdir deyib, - karyeranla kifayətlənəcəksən?***

- Əslində, Olimpiya Oyunlarının qalibi olduğum halda karyeramı bitirəcəyimi qeyd etmişdim. Amma təəssüf ki, Oyunların çempionu olmaq mənə qismət olmadı. Təbii ki, Olimpiya medalı çox qiymətli və arzuolunandır. Heç bir yarışda əldə olunan medal Olimpiadanın medalı ilə müqayisə oluna bilməz. Buna görə də, Oyunlarda qazandığım medallar mənə çox əziz və doğmadır. Amma hazırda karyeramı bitirəcəyimlə bağlı qəti qərar verməmişəm. Hələki istirahət edir, güc toplayıram. Lakin etiraf edim ki, hələ də özümdə güləşməyə gücün və potensialın olduğunu hiss edirəm. Yəni ola bilər ki, Paris-2024-də ölkəmizi təmsil etdim. Onu da vurğulayım ki, növbəti Olimpiya Oyunlarına adımın yalnız iştirak edənlər sırasında olması üçün qatılmaq istəmirəm. Yəni Oyunlarda iştirak edəcəyim təqdirdə oraya yalnız qızıl medala sahib olmaq üçün yollanacağam.





*Azər Əlizadə,*

*Türkay Niftəliyeva*

İdmançılar narkomaniyaya qarşı

# "Əsas məqsədimiz sağlam həyat tərzini təbliğ etməkdir"

*Sağlam cəmiyyətdə hər zaman istənilən uğura, istənilən nailiyyətə sahib olmaq mümkündür. Bu gün sağlam cəmiyyətin kökündə uşaq və yeniyetmələrin fiziki və mənəvi tərbiyəsi durur. Bu yaş həddində olan insanlar gələcək nəslin davamçılarıdırlar. Biz valideynlər çalışmalıyıq ki, övladlarımız sağlam həyat tərzində formalaşsınlar. İdman və bədən tərbiyəsi onların pis vərdişlərdən uzaq olması üçün ən yaxşı vasitədir. Bu sahədə fəaliyyət göstərən təşkilat və qurumlar da öz işini bu istiqamətdə qurublar.*

*2011-ci ildə Türkiyədə Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyası yaradılıb. Baş ofisi qardaş ölkədə yerləşən bu təşkilatın Azərbaycan nümayəndəliyi də təsis edilib. Təşkilatın Azərbaycan nümayəndəliyinə hazırda Respublika Olimpiya Ehtiyat Qüvvələri İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped Məktəbinin tədris işləri üzrə direktor müavini Cavid Allahverdiyev rəhbərlik edir. Nümayəndəliyin fəaliyyəti ilə bağlı məlumat almaq üçün Cavid müəllimlə görüşdük. Müsahibimiz rəhbərlik etdiyi təşkilat barədə danışaraq, gələcək planlar haqda da məlumat verdi.*



***- Cavid müəllim, bir müddətdir ki, Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının Azərbaycan nümayəndəliyinə rəhbərlik edirsiniz. Zəhmət olmasa rəhbəri olduğunuz təşkilat barəsində oxucularımıza məlumat verərdiniz.***

- Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının mərkəzi ofisi Türkiyədə yerləşir. Qısa zaman ərzində yaranmasına baxmayaraq, bu təşkilat artıq öz yerini tapıb, böyük nüfuz qazanıb.

Təsadüfi deyil ki, federasiyanın bir neçə ölkədə nümayəndəliyi də var. Qurum müxtəlif illər ərzində bir sıra mühüm layihələrin həyata keçirilməsində vasitəçi olub. Mənim təşkilatın prezidenti Qaya Müzəffər İlıcakla və İcraiyyə Komitəsinin üzvləri ilə sıx əlaqələrim var. Görüşlərimiz zamanı qurumun fəaliyyəti ilə yaxından tanış oldum. Təbii ki, bu qurumun AZərbaycanda da nümayəndəliyinin olması yaxşı olardı. Bunun üçün də təklif olundu ki, ölkəmizdə bu federasiyanın nümayəndəliyi yaradılsın. Sözsüz ki, həm Qaya Müzəffər İlıcak, həm də İcraiyyə Komitəsinin üzvləri bu təklifi dəstəklədilər. Ölkəmizdə də bu təklif yüksək qiymətləndirildi. Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurovla görüşüb, onların xeyir-dualarını aldıq. Çalışırıq ki, öz əməli işlərimizlə, bizə olan etimadı doğruldaq.



***- Gələcək fəaliyyətiniz nələri əhatə edəcək? Ümumiyyətlə, rəhbəri olduğunuz qurum bu istiqamətdə hansı yenilikləri ilə seçiləcək?***

- Qeyd edim ki, ümumbəşəri bəla olan narkotiklə mübarizədə tək yol idmandır. Bu, bizim əsas devizimizdir. Biz də hər şeydən əvvəl məhz bu devizi əldə bayraq tutaraq sağlam həyat tərzini təbliğ etməyə çalışırıq. Təbii ki, hər kəsə məlumdur ki, zərərli vərdişlərdən uzaq olan cəmiyyət hər zaman sağlam şəkildə formalaşacaq. Lakin təəssüflə qeyd etmək istərdim ki, bu gün ölkəmizdə narkotik vasitələrə meyl edən insanların sayı xeyli artmaqdadır. Ən ağrılı problem isə bu vasitələrə meyl edənlər arasında gənclərin çoxluq təşkil etməsidir. Əvvəllər narkotikdən yaşlı insanların istifadəçisi olduğunu eşidirdik. Lakin müasir dövrümüzdə məktəblilərin və tələbələrin bu bəlaya qurşandığını eşidirik. İndi görün biz nə qədər böyük bir bəla ilə üz-üzəyik. Gənclər bizim gələcəyimizdir. Biz də öz növbəmizdə çalışırıq ki, müxtəlif tədbirlərlə onları bu bəladan uzaqlaşdıraq. Lakin bu gün gənclər özü də bu problemin nə qədər böyük bir zərərə səbəb olmasını dərk etməli, belə vasitələrdən çəkinməlidirlər. Təəssüf ki, narkotik indi çox əlçatan olub. Buna görə də narkotik istifadəçilərinin sayında artım hiss olunur. Biz güc strukturlarının işinə müdaxilə edə bilmərik. Sadəcə, bir qurum kimi biz də öz növbəmizdə həmin yaş qrupunda olan insanlar arasında maarifləndirmə işi aparırıq ki, gənclərimiz bu bəlanın nə dərəcədə zərərli olmasını anlasınlar.

Mən uzun müddət idman sahəsində bir sıra işlərin və layihələrin icrasında öz bacarığımı nümayiş etdirmişəm. İndi isə bu təşkilatda daha sıx işləməklə gənclərimizin sağlam şəkildə böyüməsinə, onların narkotikdən uzaq bir həyat yaşamasına vasitəçi olmağa çalışıram. Biz Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi ilə birlikdə səmərəli fəaliyyət göstərib, gələcəkdə bu istiqamətdə uğurlu nəticələrə nail ola bilərik. Hesab edirik ki, sağlam gəncliyin formalaşması üçün həmin qurumlar da bizə bu işdə yaxından dəstəyini göstərəcək.

***- Qeyd etdiyiniz kimi, uzun müddətdir ki, ölkəmizdə idman sahəsinin inkişafı və təbliğatında səmərəli fəaliyyət göstərirsiniz. Sözsüz ki, bu illər ərzində əldə etdiyiniz təcrübələr də bu işinizdə sizə yardımçı olacaq.***

- Hazırda Respublika Olimpiya Ehtiyat Qüvvələri İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped Məktəbinin tədris işləri üzrə direktor müavini vəzifəsində çalışıram. Biz Azərbaycan Velosiped İdmanı Federasiyası ilə orta məktəblərdə bir sıra layihələr həyata keçirmişik. Belə layihələrdən danışarkən Bakı şəhər Təhsil İdarəsinin dəstəyi ilə orta məktəb şagirdləri arasında təşkil etdiyimiz yarışları xüsusilə fərqləndirmək olar. Əsas məqsədimiz peşəkar idmandan əlavə sağlam həyat tərzini təbliğinə nail olmaqdır. Təəssüf hissi ilə qeyd etmək istərdim ki, bu gün pandemiya hər bir sahədə olduğu kimi, bizim işimizə öz təsirini göstərir. Bununla belə gələcəyə nikbin baxırıq. Builki tədris ilində Təhsil Nazirliyi, Bakı şəhər Gənclər və İdman Baş İdarəsi, eləcə də digər qurumlarla birlikdə yeni layihələrimiz olacaq. İnanırıq ki, tez bir zamanda bu işlərin icrasına başlayacağıq.

***- Cavid müəllim, etiraf etmək lazımdır ki, bu gün gənclərimizin əksəriyyətinin zərərli vərdişlərə yiyələnməsində mühit amili də öz rolunu oynayır. Bu barədə sizin də fikirlərinizi bilmək maraqlı olardı.***

- Təbii ki, düzgün vurğuladınız. Belə vərdişlər elə mühit amilinin mənfi təsirləri nəticəsində ortaya çıxır. Ümumiyyətlə, yeniyetməlik yaşlarından başlayaraq valideynlərin nəzarəti və diqqəti cox vacibdir. Yeniyetməlik dövrü elə bir mərhələdir ki, həmin vaxt uşaq çox həssas olur. O, düşdüyü mühitdə formalaşır. Bu baxımdan valideynlər də çox diqqətli olmalı, övadlarının hərəkətlərini nəzarətdə saxlamalıdırlar. Ən azından bilməlidirlər ki, övladları hara gedir, kimlərlə ünsiyyət qurur. Bir sözlə, qeyd etdiyiniz kimi, gənclərin narkotik vasitələrin aludəçisi olmasında mühit amili əsas rol oynayır. Əgər uşaqlarda hər hansı bir xoşagəlməz hallar hiss olunarsa, imkan daxilində psixoloqla əlaqə saxlamaq lazımdır.

***- Gələcək fəaliyyətinizdə yeniyetmə və gənclərin məşhur idmançılarla görüşlərini təşkil etmək planlarınıza daxildirmi?***

- Sözsüz ki, hər bir uşaq üçün onun valideynindən yaxşı psixoloq ola bilməz. Lakin valideynlər də bütün günü övladlarını izləyə bilməzlər. Bunun üçün də belə bir qərara gəlmişik ki, ölkəmizdə tanınan və uğurları ilə dünyanı fəth edən idmançılarımızla məktəbliləri bir araya gətirək. Məşhur simalar keçdikləri həyat yolundan danışaraq, uşaqları idmana, sağlam həyat tərzinə yönəltsinlər. Bir idmançımız Olimpiya Oyunlarında və böyük yarışlarda uğur qazanırsa, o cəmiyyət üçün örnək hesab olunur. Həmin idmançı öz uğuru ilə ən azı yüzlərlə yeniyetmə və gəncin müxtəlif idman bölmələrinə yazılmasına vasitəçi olur. Təsəvvür edin, nə qədər yeniyetmə və gənc özünü həmin idmançıya oxşatmaq istəyir. Əgər tanınmış idmançı cüdoçu və yaxud karateçidirsə, onunla görüşdə olan uşaq da idmanın bu növünü seçmək istəyəcək. Onun sinif yoldaşı, məhəllədəki dostları da ona baxıb, idmana həvəslənəcək. Nəticədə böyük bir sağlam yaş həddi formalaşacaq. Bir sözlə, əsas məqsədimiz, gənclərimizin narkotiklərdən uzaq, sağlam həyat tərzini təbliğ etməkdir. Hesab edirəm ki, biz qısa zaman ərzində böyük işlərin öhdəsindən layiqincə gələcəyik. Onu da qeyd edim ki, təbliğat işlərində Kütləvi İnformasiya Vasitələri öz dəstəyini göstərməlidir.

***- Gələcək fəaliyyətinizi daha da inkişaf etdirmək üçün hansısa təşkilatlarla iş birliyinizin olacağı gözlənilirmi?***

- Hazırda "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi ilə danışıqlar aparırıq, onlarla memorandum imzalayacayıq. Bir neçə layihələr üzərində işlər gedir, biz valideynlərlə sıx əməkdaşlıq edərək, onları bu layihələrdə yaxından iştirak etmələrini arzulayırıq.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə danışıqlarımız gedir. Təəssüflə qeyd etməliyəm ki, son illərdə qızlar arasında narkotikdən istifadə edənlərin sayı da artmaqdadır, bu isə bizim genofondumuza böyük zərbə vurur. Gələcək analarımızın sağlam yaşamasını təmin etmək üçün onlarla maarifləndirmə işləri aparmalıyıq.

Narkotikin tələsinə düşmüş və bunun necə bir bəla olduğundan peşmanlıq çəkən insanların etiraflarını gənc nəslə çatdırmaq və bundan heç zaman istifadə etməmək üçün daha çox video çarxlar çəkmək, sağlam həyat tərzini təbliğ etmək fəaliyyətimizin əsas hissəsini təşkil edəcək.

*Anar Əhmədov*

Xəbərlər

## "Qəbələ" Gənclər Liqasında mübarizəni dayandırıb

UEFA Gənclər Liqasındakı təmsilçimiz "Qəbələ" turnirin birinci mərhələsinin cavab oyunu çərçivəsində Niderlandın "AZ Alkmar" komandası ilə qarşılaşıb.



AZ Təlim-Məşq mərkəzində keçirilən oyun 7:0 hesabı ilə rəqib komandanın xeyrinə başa çatıb. Komandalar arasında Qəbələdəki ilk qarşılaşmada Niderland təmsilçisi 4:0 hesablı qələbə qazanmışdı.

İki oyunun nəticəsinə görə, "Qəbələ" UEFA Gənclər Liqasında mübarizəni dayandırıb.

## "Karvan" futbol klubu fəaliyyətini bərpa edib

Futbol üzrə Region Liqasında çıxış edəcək daha bir klubun adına aydınlıq gəlib. Yevlaxın "Karvan" klubu çempionatda iştirak edəcək. Bu haqda informasiyanı Region Liqasının rəsmi feysbuk səhifəsi yayıb. Məlumat "Əfsanəvi "Karvan" geri döndü" başlığı ilə paylaşılıb.

## FIFA reytinqində 119-cu pillə

FIFA futbol üzrə milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb. Ötən ay açıqlanmış reytinq cədvəli ilə müqayisədə Azərbaycan milli komandası 2 pillə geriləyərək 1146 xalla 119-cu pillədə qərarlaşıb.

Qeyd edək ki, Belçika (1832 xal) və Braziliya (1820 xal) yığmaları ilk iki pillədəki mövqeyini qoruyub. Fransa (1779) isə ötən ay İngiltərəyə təhvil verdiyi üçüncü pilləni geri alıb.

## Klublararası dünya çempionatı Birləşmiş Ərəb Əmirliklərində keçiriləcək

Futbol üzrə klublararası dünya çempionatı Birləşmiş Ərəb Əmirliklərində keçiriləcək. Bununla bağlı qərar FIFA Şurasının iclasında qəbul olunub. 2022-ci ilin əvvəlində təşkili planlaşdırılan turnirin dəqiq tarixi daha sonra açıqlanacaq.



Qeyd edək ki, daha əvvəl Yaponiya klublararası dünya çempionatına ev sahibliyi etmək istəsə də, sonradan ölkə hakimiyyəti koronavirusla əlaqədar vəziyyətə görə qərarını dəyişib.

## Zəka sahiblərimizdən Avropa çempionatında uğurlu nəticə

Yeniyetmələr və gənclər arasında keçirilən Avropa çempionatında şahmatçılarımız uğurla çıxış ediblər. Azərbaycan şahmatçılarından 18 yaşlı oğlanların yarışında Uğur İlyaslı, 16 yaşlı qızların yarışında isə Ayan Allahverdiyeva 9 turdan 7,5 xal toplayaraq, Avropa çempionatının qalibi olublar. On səkkiz yaşlı qızların yarışında turnirin qalibi ilə eyni xalı (7 xal) toplayan Mələk İsmayıl isə əlavə göstəricilərə görə ikinci yeri tutub.



Digər şahmatçılarımızdan Kənan Qarayev (20 yaş, oğlanlar, 5 xal), Şiroğlan Talıbov (16 yaş, oğlanlar, 6 xal) 7-ci, Nərmin Abdinova və Səmra Qasımova (14 yaş, qızlar, 6,5 xal) müvafiq olaraq 4 və 6-cı, Sədaət Bəşirli (10 yaş, qızlar, 6,5 xal) 3-cü, Yusif Kərimli (10 yaş, oğlanlar, 7 xal) 6-cı yerləri tutublar.

Qeyd edək ki, qitə çempionatında Azərbaycanı 44 şahmatçı təmsil edib. İsveçrə sistemi üzrə keçirilən turnir 9 turdan ibarət olub.

## Şahmatçılarımız beynəlxalq turnirdə çıxış edəcəklər

Türkiyənin Mersin şəhərində V beynəlxalq şahmat turniri keçiriləcək. Turnirin A kateqoriyasında Misrətdin İsgəndərov, Ülvi Sadıqov, Pərviz Qasımov, Urfan Sevdimalıyev, Elvin Bayramov, Toğrul Həsənzadə, Talıb Babayev, Rəşad Zeynallı, Nərmin Kazımova, Sadiq Məmmədov, Amil Abbasov, Sadiq Qarayev və Süleyman Süleymanlı iştirak edəcəklər.




Yarışda Türkiyə və Azərbaycanla yanaşı, Rusiya, Ukrayna, Hindistan, Belarus kimi ölkələrdən şahmatçılar iştirak edəcəklər. Noyabrın 11-də start götürəcək turnir İsveçrə sistemi üzrə keçiriləcək və 9 turdan ibarət olacaq.

## Yığmamız Riqada yarışacaq

Şahmat üzrə "Grand Swiss 2021" turnirinin ümumi mükafat fondu 550 min ABŞ dolları təşkil edəcək. Bu məbləğin 425 min dolları kişilərin, 125 min dolları isə qadınların mübarizəsinə ayrılıb. "Grand Swiss" turniri 25 oktyabr - 8 noyabrda Latviyanın paytaxtı Riqadakı "Hanzas Perons" Mədəniyyət Mərkəzində keçiriləcək.

Qeyd edək ki, Azərbaycanı kişilər arasında Şəhriyar Məmmədyarov, Qədir Hüseynov, Rauf Məmmədov, Nicat Abbasov və Vasif Durarbəyli təmsil edəcək. Azərbaycanın turnirdəki yeganə qadın şahmatçısı isə Günay Məmmədzadə olacaq.

## Türkiyədə "Qarabağ zəfəri kuboku" adlı yarış keçiriləcək

Noyabrın 5-dən 8-dək Türkiyənin Alanya şəhərində beynəlxalq futvolley turniri keçiriləcək. "Qarabağ zəfəri kuboku" yarışı adı altında keçiriləcək yarış İkinci Qarabağ müharibəsində qazanılan Qələbəyə həsr olunacaq. Turnirdə Azərbaycanla yanaşı, Türkiyə, Braziliya, Almaniya, Ukrayna, Avstriya, Rusiya, İsrail, Fransa və Niderland futvolleyçiləri də mükafatlar uğrunda mübarizə aparacaqlar.




Qeyd edək ki, turnir Dünya Futvolley Federasiyası, Azərbaycan FutNet Federasiyası və Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə keçiriləcək.

## Reqbiçilər Gəncədə yarışacaqlar




Oktyabrın 30-da 8 Noyabr - Zəfər Gününə həsr olunmuş reqbi-7 üzrə Gəncə kuboku yarışı start götürəcək. Yarış Azərbaycan Reqbi Federasiyası, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə şəhər stadionunda baş tutacaq. Noyabrın 2-dək davam edəcək turnirdə 11 komandanın iştirakı nəzərdə tutub.

Mükafatçılara kubok, diplom və medallar təqdim olunacaq.

## Kikboksinçilərimiz dünya çempionatında 9 medala sahib oldular

İtaliyanın Yezolo şəhərində keçirilən kikboksinq üzrə dünya çempionatına yekun vurulub. İdmançılarımız dünya çempionatını 9 medalla başa vurublar. Veteranların yarışında "Ağ canavar" ləqəbli dünya və Avropa çempionu Eduard Məmmədov qızıl medala layiq görülüb. 63 kq-da mübarizə aparan idmançımız finalda ukraynalı Artyom Kaşkurtsevi məğlub edərək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

E.Məmmədov WAKO versiya üzrə 6-cı, ümumi versiyalar üzrə isə 26-cı dəfə dünya çempionu olub.

Komandamıza növbəti qızıl medalı böyüklərin mübarizəsində çıxış edən Eduard Məmmədovun tələbəsi Anar Məmmədov qazandırıb. A.Məmmədov lou-kik növü üzrə -57 kq-da qızıl medal qazanaraq, WAKO versiyası üzrə dünya çempionu adına sahib çıxıb.

Böyüklərin yarışında komandamıza gümüş medalları Camal Məmmədov (full kontakt, - 54 kq), Qəşəm Məmmədov (lou-kik, -67 kq), Rəhim Əliyev (lou-kik, -71 kq) və Ramal Aslanov (lou-kik, 75 kq) qazandırıblar. Məhəmməd İmanov (kik-layt, -57 kq), Ayxan Məmmədzadə (lou-kik, -51 kq) və Elcan Alikişiyev (lou-kik, -81 kq) isə bürünc medalla kifayətlənib.



## Kikboksçumuz ABŞ idmançısına qalib gəldi

Azərbaycan kikboksçusu Alim Nəbiyev növbəti qələbəsini qazanıb. "Qəbələ" İdman Klubunun 27 yaşlı üzvü Niderlandın Arnem şəhərində təşkil olunan "Glory79"da uğurla çıxış edib. Alim "GelreDome"də ABŞ təmsilçisi Troy Consla görüşüb. Yarımorta çəki dərəcəsində mübarizə aparan Alim Nəbiyev qarşılaşmada hakimlərin rəyi ilə qalib gəlib - 5:0 (30:27, 29:28, 29:28, 29:28, 29:28).

Beləliklə, Alim Nəbiyev "Glory" çərçivəsində keçirdiyi 8-ci döyüşdə 6-cı qələbəsini qazanıb.

## Xarkovdan 2 qızıl medal

Ukraynanın Xarkov şəhərində kempo və kobudo üzrə dünya çempionatı keçirilib. Komandamız kempoçuların yarışında 2 medal qazanıb. Belə ki, Vüqar Cəfərov (70 kq) bütün rəqiblərini məğlub edərək yarışın qalibi olub. Digər təmsilçimiz Ramin Kazımov (90 kq)keçirdiyi 3 görüşün hamısında qələbə qazanaraq dünya çempionu adına layiq görülüb. Turnirdə 16 ölkədən idmançılar iştirak ediblər.



## "Qartal" turnirin qalibi oldu

Qobu qəsəbəsinin komandaları arasında Zəfər turniri keçirilib. Turnirdə qəsəbənin 4 komandası iştirak edib. Matçdan əvvəl Qobu bələdiyyəsinin sədri Araz Nəcəfov, Bakı Kəndləri Futbol Federasiyasının prezidenti Vaqif Davudov və digər nümayəndələr qəsəbənin Vətən müharibəsində iştirak etmiş şəhidlərinin məzarlarını ziyarət ediblər.



Finalda "Təzəkənd" və "Qartal" komandaları üz-üzə gəliblər. Rəqib qapısından üç cavabsız top keçirən "Qartal" turnirin qalibi olub.

Mükafatlandırılma mərasimində finalda iştirak edən komandalara kubok və diplomlar təqdim olunub.

## "Azəryol" yarışla erkən vidalaşdı

Azərbaycanın qadın həndbolçulardan ibarət "Azəryol" klubu Avropa kubokunda mübarizə aparıb. Avrokubokların 2021/22 mövsümündəki yeganə təmsilçimiz II raundda Yunanıstanın "AEP Panorama" klubu ilə üz-üzə gəlib. Duel Bakı klubu üçün uğursuz alınıb. Hər iki görüşü Salonikidə keçirən həndbolçularımız yarışla erkən vidalaşıblar.

Oktyabrın 23-dəki matçda "AEP Panorama" meydan sahibi olub və 37:21 hesabı ilə qələbə qazanıb. Komandamız bu gün eyni məkanda təşkil olunan cavab görüşünə nominal meydan sahibi kimi çıxıb. "Azəryol" məğlubiyyətin əvəzini çıxmağı bacarıb - 27:23. Lakin iki oyunun yekununa əsasən top fərqi rəqibin xeyrinə olduğundan (60:48), "AEP Panorama" mərhələ adlayıb.

Qeyd edək ki, ilk görüşdə komandamızın bombardiri İnarə Yusubova (5), ikinci oyunda Elnarə İbrahimova (14) olub.

## Çempiona kubok qeyri-adi tərzdə təqdim olundu

Ötən bazar günü Ostin avtodromunda Formula 1 üzrə ABŞ Qran-prisi keçirilib. Qalib adını "Red Bull" pilotu Maks Ferstappen qazanıb. Ona kuboku əfsanəvi basketbolçu Şakil O Nil buynuzlu avtomobillə gətirib. "Mercedes" sürücüsü Lüis Hemilton ikinci, "Red Bull"un digər üzvü Serxio Peres üçüncü yeri tutub. Bununla da Ferstappen 287,5 xalla ümumi sıralamada liderliyini möhkəmlədib. Hemilton 275,5 xalla ikinci, onun komanda yoldaşı Valtteri Bottas 185 xalla üçüncüdür. Konstruktorlar Kubokunda "Mercedes" 460,5 xalla liderdir. Sonrakı sıralarda 437,5 xalla "Red Bull" və 254 xalla "Maklaren" qərarlaşıb.Növbəti Qran-pri 5 - 7 noyabrda Meksikada keçiriləcək.

## Ədalət təmsilçimiz CEV kuboku yarışlarına təyinat aldı

Beynəlxalq dərəcəli hakim Zaur Hacıyev qadın voleybolçulardan ibarət CEV (Avropa Voleybol Konfederasiyası) kuboku yarışlarına təyinat alıb. O, turnirin təsnifat mərhələsinin birinci oyunları çərçivəsində Rusiya klubları - "Proton" və "Uraloçka" arasında keçiriləcək görüşdə ikinci hakim funksiyasını yerinə yetirəcək. Matçın baş hakimi belaruslu Sergey Vaitsiaxoviç olacaq.

Görüş noyabrın 17-də Rusiyanın Saratov şəhərində keçiriləcək.

Komandalar arasında cavab oyunu noyabrın 23-də Yekaterinburqda (Rusiya) təşkil olunacaq.

Futbolumuzla bağlı düşüncələr

# Bir fincan çay içə-içə...



*Mobil İSMAYILOV*

*(əvvəli qəzetimizin 34-cü sayında)*

### Qalib gəlməyi unudan yığmamız...

2018-ci ildə idman saytlarında “Azərbaycan futbolunun gələcəyi yeniliklərlə bağlı olmalıdır” adlı məqaləm getmişdi. Maraqla qarşılanan həmin yazını sonradan işıq üzü görmüş “Qo-o-ol” kitabına da daxil etdim.

***Bu gün hansı yeniliklər, dəyişikliklər görürük?***

Təəssüf ki, keçən müddət ərzində müsbət işlər, irəliləyişlər,dəyişikliklər müşahidə olunmur. Azərbaycan futbolunda bütövlükdə ab-hava pis durumdadır. Azərbaycanın futbol müstəvisində sanki nizam pozulmuşdur. İstər klublarda, istərsə də yığmada proseslər plansız, xaotik şəkildə cərəyan edir. Yığmamız çox bəsit bir futbol göstərir. Çatışmazlıqlar və boşluqlar çoxdur. Məqsədlərə çatmaq üçün vəd verilən “böyük” işlər nəticəsiz qalır. Bu barədə geniş şərhə lüzum görmürəm. Ancaq vurğulamağı lazım bilirəm ki, hətta Kosovaya, Kiprə də həsəd apardıq. Yığmamız sanki meydana prinsipsiz, devizsiz çıxır. Bəli, komandamız “Ya indi, ya da heç vaxt” prinsipi ilə Kosova, Malta, Lüksemburq, İrlandiya, hətta Serbiya komandaları ilə meydana çıxmalı idi. Yalnız bu deviz ilə qələbənin mümkün olduğunu duyub anlamaq olar. Ümumiyyətlə, gərək bütün görüşlərdə ölüm-dirim savaşı (buna qladiatorların döyüşü də demək olar - red) aparasan. Təəssüf ki, yığmamız hələlik buna qadir deyil. Müasir futbolda istəkli olmaq hələ azdır. Gərək dəlicəsinə istəkli görünəsən.

Futbolumuzda belə vəziyyətin yaranmasını mən yanlış yanaşmalar və düzgün olmayan təşkilati məsələlərlə əlaqələndirirəm. Digər səbəblər əslində məhz bu iki amildən qaynaqlanır.

Azərbaycan kimi ölkəyə bütün məsələlərə fərqli yanaşmağı bacaran məşqçi gətirilməlidir. Ya da öz içimizdən seçilib tapılmalıdır. Bizə yeni bir sistem, mexanizm quran yaradıcı məşqçi lazımdır. Yeni işıq yandıranlara bu iş tapşırılmalıdır. Bizə təcili qələbələr işığı,uğur işığı, ümid işığı yandıranlar lazımdır. Onda baxışlar da dəyişəcək, yanaşmalar da...

Bu məqamda nədənsə futboldankənar bəzi məsələlərə də münasibət bildirməyə ehtiyac duyuram. Axı, hərdən indiki dadsız-duzsuz futbolumuza nəsə bir şirinlik qata bilən hadisələr də baş verir...







Məsələn, niyə futbol əhli ola bilmirik? Biz indi hər şeyin əhliyik. Şou proqramlar, konsertlər baş alıb gedir. Aparıcılar, şoumenlər, müğənnilər, dəvət olunanlar, efiri “zəbt” edənlər bir-birinə aman vermirlər. Pafoslu çıxışlar, hay-küylü sözlər. Yaradıcı insanlara, xüsusən meyxanaçılara geniş meydan verilib. Meyxana dedim, rəhmətlik Əliağa Vahidin sözü yadıma düşdü: “Biz xərabət əhliyik, meyxanalardan çıxmışıq”. SSRİ dövründə şairin bu sözü pis qarşılanmışdı. Yəni, milli, sosializm prinsiplərinə, sovet həyat tərzinə zidd idi belə fikirlər. SSRİ dağıldı. Meyxana yenidən dəbə mindi. Özü də musiqinin müşayiəti ilə. İndi televiziya kanallarında meyxana müsabiqələrinə geniş yer ayrılır. Haylı-küylü insanlar, musiqiçilər ekranları bürüyüb. Teleseriallar da bir tərəfdən. Daha kimləri görmürsən ekranlarda. Toy edənlər, səyahətə çıxanlar, yemək bişirənlər...

Mən belə verilişlərin, şou proqramların əleyhinə deyiləm. Əvvəllər peşəkar ustadların ifasında meyxana janrını mən də bəyənirdim. Amma indi hər şey əndazədən çıxıb. Axı, hər işdə, hər məsələdə bir hədd olmalıdır. Ümumiyyətlə, cah-cəlal görüntüsü yaradan, haray-qışqırıqla müşayiət olunan, səviyyə etibarı ilə çox aşağı, primitiv verilişlərin əleyhinəyəm. Ucuz verilişlərdə sponsorların sadalanması da yorucu olmaqla xeyli vaxt aparır. Televiziyalarda sponsor tapanlar dərhal yeni proqramlar, layihələr açaraq verilişlərinə də əcaib adlar qoyurlar. Sonra da başlayırlar “mühüm məsələləri”, “taleyüklü problemləri” müzakirə eləməkdən ötrü mütəxəssislər, ekspertlər çağırmağa. Arada həkimlər, biznesmenlər, vəkillər də dəvət olunur. Dəridən-qabıqdan çıxanlar tamaşaçını yorub əldən salır...





Hərdən düşünürəm ki, axı, niyə indi hamı telekanallara axışır. Deməli, biz nəinki şou əhliyik, həm də şan-şöhrət, yazı-pozu, qələm əhliyik. Daha nələr, nələr...Xaricdə stadionlara, idman qurğularına, zallara, yarış yerlərinə axışırlar, bizdə isə...Bəli, biz hər şeyin əhli ola bilirik. Futboldan başqa. Hələ ki, futbol əhli ola bilməmişik.

Telekanalların, bəzi şeylərin “havasından” danışdım. Futbolumuzun “havasından” da söz açdım. Son vaxtlar yenə də başlamışıq yığma komandaya baş məşqçi axtarışına. İndi də futbolumuzun taleyini düşünənlər baş məşqçi seçimindədirlər. Artıq başa düşmək lazımdır ki, əvvəl futbol əhli olmalıyıq, sonra məşqçi axtarışına çıxmalıyıq. Elə bu yerdə istədim Cəlil Məmmədquluzadənin, Sabirin, Üzeyir Hacıbəylinin dediklərindən uyğun gələn nəsə yada salım. Amma fikirləşdim ki, nə faydası, onsuz da hələlik futbol əhli deyilik...

Bəlkə bu məsələyə bir az da komik, məzəli prizmadan yanaşaq? Hamımıza bəllidir ki, biz yaman çox çay içənik. Çayxanalarımız çoxdur, hamısı da həmişə dolu olur. Əslində burada pis nə var ki. Çayxanalar görüş yerinə çevrilir, gələnlərin də ciblərinə uyğundur.

Mən təklif edirəm ki, stadionlarımızda daha ucuz qiymətə çay versinlər. Ya da hələlik pulsuz təşkil olunsun. Onda camaat stadionlara gələcək. İnsanlar çay içə-içə söhbət edəcək, həm də onları maraqlandıran məsələləri çözəliyəcəklər. Arabir də futbola nəzər yetirəcəklər. Mənim çayxana versiyasını irəli sürdüyümü eşidən azarkeş dostum bildirdi ki, yaxşı ideyadır. Əks halda stadionlarımız tarixi yerlərə, muzeylərə, abidələrə də çevrilə bilər. Futbol həvəskarı olmayan bir dostum da dedi ki, gəlin, stadionları “özgə məqsədlər” üçün istifadə edək. Məsələn, müəyyən tədbirlər, toplantı yerləri kimi arendaya verək. Özü də futbol oyunları keçirilən günlər. Bu halda da stadionların dolma ehtimalı böyük olacaq. Deyəsən, variantlar, təkliflər artır. Onda elə məsələyə burada nöqtə qoysam, yaxşıdır.

### Azərbaycan yenə də futbol ölkəsi olacaq!

Bayaq “hava”dan danışdım. Hər şeyin ab-havası yaxşı olmalıdır. Evdə, ailədə, işdə, hər yanda. Futbolda da belədir. Klublarımızda, yığmamızda da “hava” normal olmalıdır.

Braziliyada futbol sanki ölkənin vizit kartıdır. Braziliya və futbol obrazlı desək, təxminən eyni anlayışlardır. Mən istərdim ki, futbol anlayışı və futbol sevgisi sözləri də bizdə üst-üstə düşsün. Hərçənd ki, elə SSRİ vaxtında çox populyar olan futbol o dərəcədə sevilirdi ki, vurğuladığım bu sözlər bir-biri ilə uyuşurdu. Amma bu, o vaxtlar idi. İndi buna nail olmaq üçün böyük yollar keçməli, zəhmətlər çəkilməlidir. Perspektivdə nəzərdə tutulan layihə və planları məqsədyönlü, özü də qısa zamanda həyata keçirmək lazımdır. Onda bizim xəyallar da reallaşacaq. Bizim komandalar heç də bu yaxınlarda “Real”ı sensasiyalı tərzdə məğlubiyyətə uğradan Moldovanın “Şerif” klubundan aciz deyillər.

Futbol dünyasında gözəl anlar çoxdur. O anlar heç vaxt yaddan çıxmır. Azarkeşlərə böyük zövq verir həmin anlar. Bizim futbolda da o cür gözəl anlara ehtiyac var. Mən bu istəklərimi də xəyallar sferasına aid etmirəm. Mən istəyirəm ki, SSRİ dövrünün Azərbaycan futbolu geri qayıtsın. Mən istəyirəm ki, Avropa Azərbaycan futbolunun ayaq, qol səslərini eşitsin. Ən çətini milli yığmamızı müəyyən bir relsə salmaqdır. Uğur relsinə! Bundan sonra hər şey öz ahəngi ilə gedəcək. Sadəcə özümüzdə fədakarlıq tapmalıyıq, milli təəssübkeşliyi daha da artırmalıyıq.

**P.S.** *Mənim Azərbaycan futbolunun vəziyyəti ilə bağlı səsləndirdiyim fikirlər o demək deyildir ki, heç bir iş görülmür, hər şey pisdir və sairə. Bu fikirlər sadəcə olaraq nöqsanların aradan qaldırılmasına, futbolumuzun daha da inkişaf etməsinə yönəlib. Qoy məşqçilər, futbolçular hər şeydən əvvəl daha çox zəhmətə qatlaşsınlar, peşəkarlıqlarını artırsınlar. Əminəm ki, futbol əhli də olacağıq. Necə ki, bir vaxtlar futbol ölkəsi olmuşuq. Zaman-zaman unudulanları, itirilənləri bərpa etməyə geniş imkanlarımız, şəraitimiz, ortaya qoyulası iradəmiz, gücümüz var.*

*İndi isə irəli baxmalıyıq. Ən əsası nəticə çıxarmaqdır.*

*İrəliyə doğru, zirvələrə doğru Azərbaycan futbolu!...*

# FUTBOL

## Azərbaycan Premyer Liqası: “Neftçi”dən əzmkar qələbə

*Ötən həftəsonu futbol üzrə Azərbaycan Premyer Liqasında II dövrənin oyunlarına start verilib. VIII turun açılış matçında “Sabah” və “Sumqayıt” komandaları üz-üzə gəliblər. Masazırdakı “Bank Respublika Arena”da baş tutan görüş meydan sahiblərinin 3:0 hesablı qələbəsi ilə başa çatıb.*



Matçda hər 2 qol fasilədən sonra vurulub. 60-cı və 83-cü dəqiqələrdə Fofana Tiemoko, 79-cu dəqiqədə isə Ceyhun Nuriyev fərqlənib. Bu, paytaxt təmsilçisinin cari mövsümdə ilk qalibiyyəti olub. 11-ci dəqiqədə qonaqların heyətində Murad Xaçayev birbaşa qırmızı vərəqə ilə meydandan qovulub. 43-cü dəqiqədə isə “Sabah”ın yarımmüdafiəçisi Petar Škuletiç zədələnərək, meydanı tərk edib.

3 gün öncə Ramin Quliyevi istefaya göndərən “Sabah”ı bu oyuna baş məşqçi qismində klubun idman direktoru İqor Ponomaryov çıxarıb.

Bu nəticədən sonra xallarını 4-ə çatdıran “Sabah”ın mövqeyi dəyişməyib və komanda sonuncu pillədə qalıb. “Sumqayıt” isə 8 xalla 5-cidir.

Turun növbəti oyununda “Neftçi” “Bakcell Arena”da “Zirə”ni qəbul



edib. Qarşılaşma meydan sahiblərinin əzmkar qələbəsi ilə başa çatıb - 2:1. Matçdan öncə koronavirusdan dünyasını dəyişmiş tanınmış jurnalist Elnur Əşrəfoğlunun xatirəsi anılıb, stadionun tablolarında onun həyat yolundan bəhs edən sujet nümayiş olunub. Görüş isə 1 dəqiqəlik sükutla başlayıb. Bundan başqa, “Neftçi”də 100-cü oyununa çıxan qapıçı Aqil Məmmədov mükafatlandırılıb. 32 yaşlı qolkiperə mükafatı flaqmanın prezidenti Kamran Quliyev təqdim edib.

Oyunda hesab erkən qolla açılıb. 6-cı dəqiqədə Ağabala Ramazanov qonaqları önə keçirib. 39-cu dəqiqədə Sezar Meza Kolli “ağ-qaralar”ın bərabərlik qoluna imza atıb. Qarşılaşmanın 84-cü dəqiqəsində Mirabdulla Abbasov fərqlənərək “Neftçi”yə qələbə qazandıran qolun müəllifi olub.

Bu qələbədən sonra xallarını 17-yə çatdıran “Neftçi” 2-ci pillədəki mövqeyini qoruyub. 12 xalı olan “Zirə” isə 4-cü sırada qalıb.

Oktyabrın 24-də Azərbaycan Premyer Liqasında VIII turun daha bir oyunu keçirilib. Günün yeganə matçında “Keşlə” “Qəbələ”ni qəbul edib. Qarşılaşma qonaqların 3:2 hesablı qələbəsi ilə yekunlaşıb. Görüşdə ilk qol 23-cü dəqiqədə qeydə alınıb. “Qırmızı-qaralar”ın heyətində Ruan Renato fərqlənib. Yeddi dəqiqə sonra “Qəbələ”nin kapitanı Asif Məmmədov fərqi iki topa çatdırıb. 38-ci dəqiqədə “Keşlə”nin portuqaliyalı legioneri Aldair Neto fərqi azaltsa da, 59-cu dəqiqədə İsnik Alimi əyalət təmsilçisinin üçüncü qolunu vurub.

69-cu dəqiqədə qonaqların yarımmüdafiəçisi Stefan Vukçeviç ikinci sarı vərəqəni alaraq meydandan qovulub. 90+7-ci dəqiqədə Amil Yunanov “Keşlə”nin təsəlli qolunun müəllifi olub.

Bu nəticədən sonra xallarının sayı 15-ə çatdıran “Qəbələ” 3-cü pillədəki mövqeyini qoruyub. “Keşlə” klubu isə 7 xalla 6-cı sırada qərarlaşıb.

*Ölkəmizin Avrokuboklardakı yeganə təmsilçisi “Qarabağ” klubu Konfrans Liqasında növbəti oyununu keçirib. Qrup mərhələsinin III tur matçına çıxan Ağdam təmsilçisi autsayderlər sırasında qərarlaşan “Kayrat”ı qəbul edib. Cari mövsüm nə Premyer Liqada, nə də avrokuboklarda məğlubiyyət üzü görən Qurban Qurbanovun yetirmələri Qazaxıstan klubu önündə də bu seriyanı davam etdirib.*

Matçda hesab 19-cu dəqiqədə açılıb. Qonaqlar “Qarabağ”ın qapısına təyin olunan penalti zərbəsindən sonra hesabda irəli çıxıblar. Görüşün birinci hissəsi elə bu hesabla başa çatıb. Qarşılaşmanın ikinci hissəsində Ağdam klubu istəyinə nail olub. Əvvəlcə 79-cu dəqiqədə Ramil Şeydayev hesabı bərabərləşdirən qolu vurub. Görüşün sonlarına yaxın isə Abbas Hüseynov komandamıza 3 xalı qazandıran qolun müəllifi olub.

## *“Qarabağ” qələbə sayəsində qrupda vahid liderliyini qorudu*



Beləliklə, əzmkar qələbə sayəsində xallarının sayını 7-yə çatdıran “Qarabağ” H qrupunda liderliyini davam etdirir.

Ağdam təmsilçisindən 3 xal geri qalan “Bazel” ikinci, 1 xalı olan “Kayrat” və “Omoniya” isə 3-4-cü pillələrdə qərarlaşıblar. Bu qrupun digər oyununda Kiprin “Omoniya” klubu İsveçrədə “Bazel” komandasının qonağı olacaq.

Xatırladaq ki, “Qarabağ” klubu birinci turda “Bazel” ilə heç-heçə edib - 0:0. Qurban Qurbanovun yetirmələri ikinci turda Kiprdə “Omoniya” klubunu 4:1 hesabı ilə məğlub ediblər.

Qeyd edək ki, “Qarabağ” IV tur çərçivəsində “Kayrat”la noyabrın 4-də Qazaxıstanda üz-üzə gələcək.

**Konfrans Liqası H qrupu,**
**III tur 21 oktyabr 20:45.**

“Qarabağ” (Azərbaycan) - “Kayrat” (Qazaxıstan) - 2:1

**Qollar:** Ramil Şeydayev, 79, Abbas Hüseynov, 90+1 - Joze Kante, 19 (pen.)

**Baş hakim:** Yevgeni Aranovski (Ukrayna)

***Bakı. Tofiq Bəhramov adına Respublika Stadionu***

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| *1. Qarabağ* | *3* | *2* | *1* | *0* | *6-2* | *7* |
| *2. Bazel* | *2* | *1* | *1* | *0* | *4-2* | *4* |
| *3. Kayrat* | *3* | *0* | *1* | *2* | *3-6* | *1* |
| *4. Omoniya* | *2* | *0* | *1* | *1* | *1-4* | *1* |

## Ərəblərdən DÇ-2022 üçün yeni sənət əsəri



2022-ci ildə Qətərdə keçiriləcək futbol üzrə dünya çempionatına ev sahibliyi edəcək “Al-Tumama” stadionu istifadəyə verilib. Arenanın açılış mərasimi “Əl-Sədd” və “Əl-Rayan” komandaları arasında Əmir Kubokunun final oyunundan öncə baş tutub. Bu, DÇ-2022 üçün tam hazır vəziyyətə gətirilmiş 5-ci stadiondur. Yerləşdiyi bölgənin adını daşıyan arenanın dizaynı Körfəz ölkələrinə xas olan kişi baş geyiminə bənzəyir. 40 min azarkeş tutumuna malik arenada mundialın qrup oyunları, həmçinin 1/8 final və 1/4 final qarşılaşmaları keçiriləcək.

Artıq dünya çempionatının final mərhələsinin püşkatmasının vaxtı da müəyyənləşib. Tədbir 2022-ci il aprelin 1-də keçiriləcək.

Qeyd edək ki, dünya çempionatı gələn il 21 noyabr - 18 dekabrda keçiriləcək. Bu, qış vaxtı təşkil olunacaq ilk mundialdır.

## Yığmamız iki rəqibini qabaqladı

Azərbaycan UEFA-nın reytinq cədvəlində 2 pillə irəliləyib. “Qarabağ”ın UEFA Konfrans Liqasında Qazaxıstan “Kayrat”ı üzərində 2:1 hesablı qələbəsi sayəsində mümkün olub. Ölkəmizin aktivinə daha 0,500 xal gəlib və ümumi xal sayı 16,000-a qalxıb. Beləliklə, 26-cı pilləyə yüksələn Azərbaycan hərəyə 15,875 xala malik Polşa və Macarıstanı geridə qoyub. Polşanın “Legiya” komandası Avropa Liqasının qrup mərhələsinin üçüncü turunda İtaliyada “Napoli”yə 0:3, Macarıstan “Ferentsvaroş”u Şotlandiyada “Seltik”ə 0:2 hesabı ilə uduzub.

Qazaxıstan isə 15,500 xalla 29-cu pillədə yer alıb.



Dünya idmanı



## “Oyunu dəyişən sınanmış çempion”

Didye Droqba Dünya Səhiyyə Təşkilatının (DST) idman və sağlamlıq məsələləri üzrə xoşməramlı səfiri təyin edilib. Veteran futbolçu qurumun fiziki fəallıq və sağlam həyat tərzinin digər növləri üzrə məsləhət və tövsiyələrinə dəstək verəcək. Həmçinin gəncləri idmanla məşğul olmağın vacibliyi ilə bağlı məlumatlandıracaq.

DST-nin rəhbəri Tedros Adanom Gebreyesus Droqbanı meydanda və ondan kənarda oyunu dəyişən sınanmış çempion kimi təqdim edib.

Kot d İvuar yığmasının sabiq hücumçusu təşkilatın İsveçrənin Cenevrə şəhərindəki mənzil-qərargahında keçirilən təqdimat mərasimində çıxış edib: “Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıq etmək və bu qurumun insanların, xüsusilə bütün ölkələrdə gənclərin sağlamlığı sahəsində ən yüksək göstəricilərə nail olmaq məqsədi ilə gördüyü işlərə dəstək vermək mənim üçün böyük şərəfdir”.

## “8 nömrəli tramvayda məşqlərə gedən balaca oğlan”

İsveçrənin Bazel şəhərində məşhur tennisçi Roje Federerin şərəfinə tramvay xətti işə salınıb. Bu münasibətlə təşkil edilmiş mərasimdə tennis ustasıyla yanaşı, “Bazel” futbol klubunun kapitanı Fabian Fray, baş məşqçi Patrik Ramen və idman direktoru Marko Ştreller də iştirak edib.

Müvafiq görüntülər Federer və “Bazel”in sosial şəbəkə səhifələrində yayılıb.

“Böyük dəbilqə” seriyalı turnirlərin 20 qat qalibi olan tennis ustası bu hadisəni özü üçün böyük şərəf adlandırıb və sanki hələ dünən 8 nömrəli tramvayda məşqlərə gedən balaca oğlan olduğunu bildirib.



olimpnews.az - sizin saytınız



## Dünya çempionatının ingiltərəli siması

İngiltərə millisinin sabiq futbolçusu Devid Bekhem 2022-ci ildə Qətərdə keçiriləcək dünya çempionatının siması olacaq. “The Sun” nəşrində yer alan xəbərə görə, tərəflər əməkdaşlığı növbəti ay açıqlayacaq.



Hazırda ABŞ-ın “İnter Mayami” klubuna sahiblik edən 46 yaşlı keçmiş yarımmüdafiəçi bu razılaşmadan illik təxminən 18 milyon avro qazanacaq.

Tərəflər arasında müqavilə 10 illik nəzərdə tutulub. Bekhem bu müddət ərzində Qətərin səfiri olacaq.



## Qələbə üçün 1 dəqiqə 45 saniyə kifayət edib

Rusiyalı döyüşçü Fedor Yemelyanenko “Bellator 269” turnirində amerikalı rəqibi Timoti Consona qalib gəlib. Döyüşün taleyi 1-ci raundda həll olunub. F.Yemelyanenko döyüşdə nokautla qalib gəlib.Döyüş 1 dəqiqə 45 saniyə davam edib. Bu qələbədən sonra 45 yaşlı Fedor Yemelyanenkonun aktivində 40 qələbə-si və 6 məğlubiyyəti var.

## Əfsanəvi xizəkçi həyatla vidalaşdı

Rusiyanın tanınmış xizəkçisi Vyaçeslav Vedenin dünyasını dəyişib.Titullu idmançı 80 yaşında uzun müddət davam edən xəstəlikdən vəfat edib. Əfsanəvi xizəkçi öz vəsiyyətinə uyğun olaraq, Tula bölgəsindəki doğma kəndi Slobodada dəfn ediləcək.

Qeyd edək ki, dördqat dünya çempionu olan Vedenin 1972-ci il Qış Olimpiya Oyunlarında 2 qızıl və 1 bürünc medal qazanıb. O, həmçinin 1968-ci ildəki olimpiadada 2-ci yeri tutub.

## *Hakimə əl qaldırmaq olmaz*

Braziliyanın “SK San-Paulu” klubunun müdafiəçisi Uilyam Ribeyro futboldan kənarlaşdırılıb. Buna 30 yaşlı oyunçunun “Quarani” ilə görüşdə baş hakim Rodriqo Krivellaroya hücum etməsi səbəb olub. Ribeyro qarşıdakı 2 ildə peşəkar futbolla məşğul ola bilməyəcək.

Qeyd edək ki, hadisə oktyabrın 5-də keçirilmiş matçın 61-ci dəqiqəsində baş verib. Müdafiəçi hakimi yumruqla vurub, sonra isə boynuna təpiklə zərbə endirib. Huşunu itirən referi xəstəxanaya aparılıb və göriş dayandırılıb.

Polis Ribeyronun hərəkətlərini qətlə cəhd kimi qiymətləndirib. Yerli həbsxanaya göndərilən futbolçu cərimə də ödəyəcək.

Azərbaycan Cüdo Federasiyasının kollektivi federasiyanın baş katibinin müavini

**Elnur Əşrəfoğlunun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

“Olimpiya dünyası” qəzetinin kollektivi Azərbaycan Cüdo Federasiyasının baş katibinin müavini

**Elnur Əşrəfoğlunun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir. Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19